**UOT 342-34**

**Xalid NİYAZOV**
*s.e.ü.f.d., dosent*
*AMEA Hüquq və İnsan Haqları İnstitutu*

# KİV-İN İNFORMASİYA SİYASƏTİNİN FORMALAŞMASINDA ROLU*

Dövlət informasiya siyasətinin "hakimiyyət" kateqoriyası üzərindən müəyyənləşdirilməsi maraqlı görünə bilər. Əslində, belə bir yanaşma məntiqidir, çünki hakimiyyət fenomen olaraq bir subyektin müxtəlif vasitələrlə başqa subyektlərin fəaliyyət və davranışına hər hansı bir təsir göstərə bilmək imkan və vasitələri ilə xarakterizə edilir.

KİV-in insanların ağlına və davranışına müstəsna təsir gücünü nəzərə alaraq onu haqlı olaraq dördüncü hakimiyyət adlandırırlar. Bununla bağlı V.D.Popov hesab edir ki, … dövlət informasiya siyasəti – siyasət subyektlərinin informasiya vasitəsilə dövlətin və vətəndaş cəmiyyətinin maraqlarına uyğun olaraq insanların psixika və şüuruna, davranış və fəaliyyətinə təsir etmək imkan və məharətidir [2, s. 38]. Yenə də müəllifin qənaətincə, belə bir siyasətin subyekti qismində dövlət, dövlət orqanları, siyasi partiyalar, eləcə də vətəndaş cəmiyyətinin mediaholdinqləri, KİV və KK kimi institutları çıxış edə bilərlər.

Belə bir vəzifə Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 31 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Konsepsiyasında da öz əksini tapmışdır: "Dövlətin informasiya siyasətinin əsas vəzifələrindən biri kütləvi informasiya vasitələrinin fəaliyyətində şəxsiyyət, cəmiyyət və dövlətin maraqlarının tarazlaşdırılmasına yönəlmiş hüquqi, iqtisadi, təşkilati və texnoloji tədbirlərin müəyyən edilməsidir. Elə şərait yaradılmalıdır ki, kütləvi informasiya vasitələri sosial təsisatların və cəmiyyətin obyektiv məlumatlandırılması funksiyasını səmərəli yerinə yetirə bilsin" [8].

Hakimiyyətlə cəmiyyət arasında KİV üzərindən konstruktiv dialoqun həyata keçirilməsi həmişə öz aktuallığını qoruyub saxlayacaqdır; bu, yeni yaranmış situasiya və ortaya çıxan problemlər kontekstində belə bir qarşılıqlı əlaqənin yeni formalarının axtarışına, onun hüquqi, təşkilati və müasir dövrdə məxsusi əhəmiyyət kəsb edən psixoloji formalarının dəqiqləşdirilməsinə yönəlmiş permanent prosesdir.

Adı gedən strukturlar Azərbaycan Respublikasının informasiya məkanında fəaliyyət göstərməklə dövlətin strateji və cari vəzifə, maraq və məqsədlərinə uyğun gələn, bəzən isə ziddiyyət təşkil edən informasiya siyasətini həyata keçirirlər.

Etiraf olunmalıdır ki, bu gün bir sıra ölkələrdə KİV-in söz azadlığı və demokratiya pərdəsi altında dövlətin milli maraq və həyati mənafelərinə, milli və informasiya təhlükəsizliyi prinsiplərinə zidd fəaliyyəti müşahidə olunmaqdadır. Ən acınacaqlısı isə odur ki, dövlətin əlində belə bir antimilli fəaliyyətin qarşısını ala biləcək effektiv təsir mexanizmi yoxdur.

Ümummilli əhəmiyyət kəsb edən məsələlərdə dövlət və medianın milli maraqların müdafiəsi müstəvisindən vahid mövqedən çıxış etdiyini prezident İlham Əliyev ölkənin media ictimaiyyəti ilə istisnasız olaraq bütün görüşlərində ifadə edir: "... cəmiyyətimiz milli ideyalar, milli, strateji maraqlar ətrafında birləşib. Cəmiyyətdə bizim strateji seçimimizlə, ölkəni narahat edən əsas problemlərlə bağlı fikir ayrılığı yoxdur. Bizim mətbuatımız da əlbəttə ki, ilk növbədə, dövlətimizin strateji maraqlarını, dövlətimizin gələcəkdə də təhlükəsizlik şəraitində yaşamasını müdafiə etməlidir və milli maraqlarımızı beynəlxalq müstəvidə də qorumalıdır. Mən hesab edirəm ki, son vaxtlar, son illər ərzində bizim mətbuatımızda bu istiqamətdə ciddi dönüş

* Məqalə fəlsəfə ü.f.d., dos. Zeynəddin Şabanov tərəfindən çapa məsləhət görülüb.

yaranmışdır. Nəzərə alsaq ki, XXI əsr informasiya əsridir, əlbəttə, biz bunu daim diqqətdə saxlamalıyıq" [9].

Hakimiyyətlə KİV arasındakı münasibətlərin təhlili zamanı diqqəti daha çox inkişaf etmiş demokraiyalar yaxud avtoritar dövlətlər deyil, KİV-in paralel olaraq həm siyasi mübarizə meydanı, həm də bu mübarizələrin girovuna çevrildiyi keçid cəmiyyətləri cəlb edir. Bu cür cəmiyyətlərdə KİV-in məxsusi siyasi rolu onunla izah olunur ki, plüralist informasiya məkanı bir qayda olaraq demokratik institutlardan əvvəl yaranır. Başqa sözlə desək, belə bir şərait yarana bilər ki, kütləvi informasiya vasitələri inkişaf ediblər, cəmiyyətdə kifayət qədər təsir qüvvəsinə malikdirlər, lakin onların müstəqilliyinin və məsuliyyətinin siyasi təminatları yoxdur.

Məsələn, ötən yüzilliyin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəllərində kütləvi şəkildə demokratiya və azadlıqla bağlı şüarlar səslənirdisə, müasir Azərbaycanda siyasətin də, siyasi münasibətlərin də, həmçinin ictimai fikir institutu olaraq medianın da trendləri dəyişib; indi daha çox hakimiyyətin "həndəsi quruluşu" və iqtisadiyyatda kök salmış inhisarçı zümrə üzərində nəzarətlə bağlı çağırışlar eşidilir. Əlamətdar haldır ki, Prezidentin özü belə bir nəzarətin "ictimai nəzarət" mexanizmi üzərindən həyata keçirilməsinin zəruriliyini təşviq edir. Dəyərlər sisteminin bu cür yerdəyişməsi birmənalı olaraq informasiya mühiti tərəfindən müəyyənləşdirilir; belə ki, siyasi dəyərlərin özü də ümumi informasiya mühitinin komponenti kimi səciyyələndirilir.

Dövlət informasiya siyasəti dövlətin maraqlarını onun vətəndaş cəmiyyətinin və hər bir fərdin maraqlarını qoruyub reallaşdırdığı səviyyədə həyata keçirib müdafiə etməlidir. Dövlətin vətəndaş cəmiyyətinin maraqlarını müdafiə etmədiyi təqdirdə bu vəzifəni kütləvi informasiya vasitələri öz üzərinə götürür. Kütləvi informasiya vasitələri siyasi sistemin kommunikativ funksiyalarının həyata keçirilməsi istiqamətində ixtisaslaşırlar. Media ictimaiyyəti də öz fəaliyyətini bu istiqamətdə qurur. Həmin seqmentin daxilində və ondan kənar münasibətlər isə informasiya qanunvericiliyi və korporativ normalarla tənzimlənir.

Bir məqamı qeyd etməyi də vacib hesab edirik ki, kütləvi informasiya vasitələri termini keçmiş Sovetlər birliyinə aiddir. Qərbdə həmin terminin analoji qarşılığı kimi kütləvi kommunikasiya vasitələri anlayışından istifadə olunur ki, bu da kütləvi ünsiyyətin bütün sferalarını – elektron rabitə vasitələri, İnternet və s. əhatə edir. Azərbaycan qanunvericiliyi hüquqi tənzimləmə obyekti kimi son vaxtlaradək ənənəvi medianı qəbul edirdisə, informasiya daşıyıcılarının diversifikasiyası, konvergentləşməsi və rəqəmsallaşmasının nəticəsi olaraq artıq "new media"nın fəaliyyəti də normalaşdırılıb [10].

Kütləvi kommunikasiya vasitələrinin siyasi funksiyaları KİV-lə demək olar ki, eyniyyət təşkil edir:

- informasiya funksiyası; maarifləndirmə funksiyası;
- siyasi-sosiallaşma funksiyası; nəzarət funksiyası;
- artikulyasiya və maraqların təmsiledilməsi funksiyası ;
- səfərbəredici funksiya; innovasiya funksiyası;
- operativ funksiya; ictimaiyyətin və ictimai rəyin formalaşdırılması funksiyası.

Dövlət informasiya siyasətinin formalaşmasında KİV-in rolu onun siyasi imkanları ilə müəyyən olunur. Əvvəla, istənilən dövlətdə insanların dinc yanaşı yaşamasını mümkün edən ümumi dəyərlər sistemi mövcuddur. Müxtəlif ictimai qruplar arasında ümumi məqsəd və dəyərlərin, ictimai rəy və razılığın əldə edilməsi, təmas və dialoqun qurulması KİV- lərin vəzifələri sırasındadır. İkincisi, dövlət siyasətinin müzakirəsi, tənqidi, təshihi, ictimai tələblərin hakimiyyətə çatdırılması və ümumiyyətlə, cəmiyyətin belə bir siyasətin işlənib hazırlanmasında iştirakı KİV-siz mümkün deyildir. Üçüncüsü, KİV dövlətin onun qarşısında, eləcə də öz qarşısında qoyduğu vəzifələri cəmiyyətə çatdırır, dövlət siyasətinin təbliğatçısına, eləcə də vətəndaşların ümumdövlət işlərində iştirakının təşkilatçısına çevrilə bilir. Nəhayət, KİV dövlətdə münbit psixoloji mühitin təşəkkül tapmasına, hər bir vətəndaşda şəxsi ləyaqət hissinin tərbiyə

edilməsinə, insanlarda özlərinə və dövlətə inam hissinin aşılanmasına yuridik olmasa da, mənəvi məsuliyyət daşıyır. Bu müstəvidə dövlət KİV-ə dəstək verilməsində və onun fəaliyyətinin tənzimlənməsində maraqlıdır.

Azərbaycan timsalında dövlətin demokratik mahiyyətini və quruluşunu ifadə edən indikatorlardan biri məhz informasiya mənbələrinin plüralizmi, KİV-in müxtəlifliyidir. Məhz belə bir müxtəliflik ümumvətəndaş həmrəyliyi və məsuliyyətini formalaşdırmaqla ictimai həyatın və ictimai rəyin fərqli çalar və axınlarını təcəssüm etdirir.

Bu gün müasir siyasi prosesi KİV-siz təsəvvür etmək qeyri-mümkündür. Media siyasiləşdiyi kimi, tam əksi – siyasətin də mediallaşması prosesi baş verir. Və media vasitəsilə oxucuya, dinləyiciyə, tamaşaçıya ünvanlanan siyasət daha praktiki və real təsir bağışladığı üçün hakim sinif həmişə KİV üzərində nəzarəti əlində saxlamağa çalışır.

KİV ən vacib siyasi problemlərlə bağlı ictimai fikri formalaşdırmaqla geniş xalq kütləsinin siyasi cəhətdən sosiallaşmasında əsas aktorlardan biri kimi çıxış edir. Mətbuat, radio, televiziya, son illərdə isə internet siyasi proseslərin ayrılmaz, real hissəsinə çevrilmişdir. Sözügedən kontekstdə informasiya axını üzərində nəzarət və onun idarə edilməsi vacib siyasi məsələlərdən biri kimi çıxış etməkdədir. Çünki KİV - ə nəzarət obyektiv olaraq siyasi prosesə müdaxilə etmək və onun inkişafına təsir rıçaqlarını əldə saxlamaq deməkdir [7].

Müxtəlif dövrlərdə hakim fərqli siyasi rejimlərin hakimiyyət fəlsəfəsinə adekvat olaraq Azərbaycanda mediaya administrativ təzyiq, onun fəaliyyətinin nəzarət altında saxlanması, senzuraya məruz qalması faktları yer almışdır. Belə bir idarəçiliyin bariz nümunəsi qismində sovetlər dönəmini göstərmək mümkündür. Lakin bununla belə ölkəmizdə sözə, mətbuata, ümumiyyətlə, KİV-ə rəğbətin dərin kökləri mövcuddur. Müstəqillik tariximizin yeni səhifələrinin yazıldığı bir dövrdə medianın üzərindən senzura götürülmüş, onun sərbəst fəaliyyətini tənzimləyən normativ-hüquqi baza yaradılmışdır. İstənilən demokratik ölkədə olduğu kimi, Azərbaycanda da hakimiyyət məlumat mənbələrinin plüralizmində, ictimai fikrin bütün əsas çalar və axınını əks etdirən KİV-in çoxnövlülüyündə, aşkarlığın təmin edilməsində maraqlıdır.

KİV-in siyasi təsir qüvvəsini şərtləndirən əsas elementlərdən biri cəmiyyətin və hökumətin diqqət mərkəzində yer alan mövzuların müəyyən olunaraq müzakirəyə çıxarılmasıdır. Bu zaman əsas məqam cəmiyyət üçün daha aktual sayılan problemin müzakirə predmetinə çevrilməsidir. Çünki praktika göstərir ki, çoxsaylı problemlər və onların müzakirəsi ilə eyni vaxtda məşğul olmaq mümkün deyil. Əslində, KİV-in cəmiyyət üçün aktuallıq kəsb edən hər hansı bir məsələni gündəmə gətirərək ictimaiyyətin müzakirəsinə çıxarması siyasətçiləri hər zaman narahat edən əsas məsələlərdəndir. Bununla dördüncü hakimiyyət kimi KİV problem mənbəyi olan reallıqları üzə çıxarır, günahkarları ictimai şəkildə mühakimə edir, tənqid obyektinə çevirir.

Bu gün müasir siyasi prosesi KİV-siz təsəvvür etmək, bir qədər əvvəl də qeyd etdiyimiz kimi, sadəcə, qeyri-mümkündür. Radio və televiziyadakı siyasi veriliş, qəzetdəki siyasi reportaj tamaşaçı və oxucu auditoriyasına bilavasitə təsir edir, cəmiyyətdə mühüm ictimai-siyasi hadisə kimi qəbul olunur. Demokratik cəmiyyətdə KİV təkcə təbliğat vasitəsi kimi qalmayaraq, həm də hakimiyyətə qütbvari əks mövqelərdə qərar tutur. Lakin bu prinsipə sadiq qalmaq, ona əməl etmək heç də həmişə müyəssər olmur. Buna yalnız jurnalistlər deyil, cəmiyyətin özü də vərdiş etməlidir. Təcrübə göstərir ki, siyasi rejimlərdən və hakimiyyətin xüsusiyyətlərindən asılı olaraq bu, ağrılı və çətin bir prosesdir. O da danılmaz həqiqətdir ki, ayrı-ayrı jurnalistlərin, redaksiya kollektivlərinin siyasi proseslərdə səmərəli iştirakı yalnız yaradıcılıqla bağlı olmayaraq, onların siyasi prosesə subyekt qismində qatılmaq istəyi ilə də əhəmiyyətli dərəcədə bağlıdır. KİV-in siyasətdə rolu ilk növbədə onun funksiyalarında özünü göstərir. Həmin funksiyaları isə aşağıdakı kimi təsnifləndirmək mümkündür: vətəndaşların məlumatlandırılması, onlara zəruri informasiyaların verilməsi, siyasi maarifləndirilmə, siyasi sosiallaşma, müxtəlif ictimai maraqların ifadə

olunması, artikulyasiya imkanlarının mövcudluğu, siyasət subyektlərinin inteqrasiyası, ictimai fikrin formalaşdırılması, çatışmazlıqların tənqidi.

KİV cəmiyyətin siyasi sistemində müxtəlif siyasi proqramların, platformaların, ideyaların, müxtəlif şəxslərin, ictimai qurumların, siyasi zəmində fəaliyyət göstərən partiyaların, fraksiyaların və s. təkliflərini müzakirə, dəstək, tənqid və mühakimə yolu ilə siyasi idarəçilik rolunu yerinə yetirir. Məsələn, ölkəmizin yeni müstəqillik tarixində cəmiyyətin demokratikləşməsi və yeni dövrün tələblərinə uyğun şəkildə formalaşmasında KİV kifayət qədər fəal iştirak edir. Cəmiyyətin informasiya maraqlarının, aşkarlığın təmin edilməsində, ictimai rəyin öyrənilməsi və formalaşmasında, vacib problemlər ətrafında fikir mübadilələrinin təşkilində, dövlətin, partiyaların, ictimai təşkilatların və hərəkatların, ayrı-ayrı liderlərin proqram və fəaliyyətlərinin dəstəklənməsi və tənqidində, siyasi mədəniyyətin inkişafında yaxından iştirak etməklə KİV siyasət sferasında vacib funksiyaları yerinə yetirir.

Siyasi sistemdə KİV-in yerini, K.Marks siyasi, ancaq qeyri-rəsmi və dövlətlə cəmiyyət arasında əlaqə yaradan "üçüncü element" kimi müəyyən etmişdir [4, s.187].

Bu səbəbdən KİV-in rol və funksiyası daim cəmiyyətin fəaliyyətindən, deməli, onun siyasi quruluşundan asılı olmuşdur. Hakim sinif isə hər zaman KİV üzərində nəzarəti təmin etməyə cəhd göstərmişdir. Amerika mediası barədə yazarkən M.Parenti qeyd edilən xüsusda olduqca maraqldı məqamlara toxunur: "Mətbuatın sahibkarlar, mühafizəkar və hökumətmeyilli olması tamamilə aydın görünür. Kütləvi informasiya vasitələrinin sahibkarların tərkibi və onların biznes reklamından böyük asılılığı nəzərə alınsa, həmkarlar ittifaqlarının mediada çalışanların ehtiyac və tələblərini bəyan etmək imkanları olduqca məhduddur" [5, s. 218].

KİV-in siyasi rolunun kökündə müasir şəraitdə "informasiya azadlığı" tələbinə transformasiya olunan "söz azadlığı" tələbi dayanır. Söz azadlığı anlayışı azadlığın əsas düşməni hesab olunan feodal dövlətlərə qarşı burjua inqilabları dövründə yaranmışdır. Bu zaman hesab olunurdu ki, mətbuat hökumətin qəsdlərindən kənarda qalmaq üçün azadlığını qorumalıdır. Lakin burjua inqilabları fonunda mətbuatın dövlət senzurasından azad edilməsi həmin azadlığın KİV sahiblərinin əlinə verilməsi ilə nəticələndi. Maks Veber bununla bağlı yazırdı: "Baş verənlər nəticəsində işçi-jurnalistin siyasi təsiri azalsa da, mətbuatın sahibi olan maqnat - kapitalistin bu təsiri daha da artmağa başladı" [1, s. 804] .

KİV texnologiyasının inkişafı isə vəziyyəti daha da mürəkkəbləşdirdi. K.Manheymə görə, hakimiyyətin diktaturaya çevrilməsi ictimai fikrin formalaşdırılması sahəsində aktiv inkişaf edən müasir sosial texnologiyaların əsas xüsusiyyətləri sayəsində baş verir: "Mətbuat və radionun köməyi ilə bu istiqamətdə ideyaların mexanikləşdirilmiş kütləvi istehsalı həyata keçirilir" [3, s. 693].

Belə bir məqama da aydınlıq və konkretlik gətirilməlidir ki, mətbuatın hakimiyyətin dördüncü qolu adlandırılmasına rəğmən jurnalistlərin "hakimiyyət"i rəmzi xarakter daşıyır. Bəli, heç şübhəsiz, medianın cəmiyyətin və dövlətin arzuolunan modeli barədə müəyyən sosial təsəvvürlər yaratmaq və onun qəbul edilməsinə nail olmaq imkanları vardır. Bu sosial imtiyaz cəmiyyətdə KİV-in hakimiyyətini hər nə qədər genişləndirsə də, paralel olaraq onu siyasətin və iqtisadiyyatın fasiləsiz təsir hədəfinə çevirir. Bununla belə, adı çəkilən seqmentlərin özləri də sürəkli olaraq KİV-in təsirinə məruz qalırlar. Təbii ki, bütün bunlara həm də ictimai-siyasi quruluşun, dövrün reallıqlarının prizmasından yanaşmaq lazım gəlir. Məsələn, Kommunist Partiyasının hakim olduğu sovet cəmiyyətində KİV partiya siyasətinin kollektiv təbliğatçısı, təşviqatçısı və təşkilatçısı idi. Lakin SSRİ-nin süqutundan sonra dəyişən sosial və siyasi struktur postsovet məkanında KİV-in inkişafına ciddi təsir göstərmişdir. Q.Q.Poçeptsov postsovet dönəmində KİV tarixinin üç mərhələsini ayırır:

1. Mərkəzləşdirilmənin tənəzzülü mərhələsi. Bu dövrdə çoxsaylı yeni KİV-lər

yaradılsa da, informasiya axınının təmin etmək üçün yetərli maddi və intellektual resursların hazırlanmasına diqqət ayrılmir.

2. Biznes və ya satış mərhələsi. Birinci mərhələdə sayı çoxalan qəzetlər, jurnallar, kanallar burada artıq alqı-satqı predmetinə çevrilirlər.

3. Üçüncü mərhələ isə artıq KİV-lərin arasında ciddi rəqabətin başlanması ilə xarakterizə edilir [6, s. 574].

Göstərilən mərhələləri Azərbaycan KİV-nin postsovet dönəmindəki inkişaf tarixinə də aid etmək olar. Ötən əsrin son onillyində kifayət qədər mürəkkəb tarixi və ictimai-siyasi şəraitdə dövlət müstəqilliyini əldə etdikdən sonra ölkəmizdə də çoxsaylı media orqanları yaranmışdır. Bu sıraya ilkin mərhələdə əsas etibarı ilə qəzet və jurnallar şamil edilsə də, sonradan onların sırasına telekanal və radiolar, informasiya agentlikləri, son dövrlərdə isə internet resursları da daxil olmuşdur. Sovetlər dönəmindən fərqli olaraq artıq fərdi şəxslərin, təşkilat və müəssisələrin müstəqil şəkildə KİV təsis etmək hüququ ölkəmizdə media vasitələrinin çoxalması ilə xarakterizə edilmişdir ki, həmin tendensiya bu gün də davam etməkdədir. Bütün bunları şərtləndirən başlıca cəhətlərdən biri isə KİV-in də siyasi cəhətdən müstəqillik əldə etməsidir. Bu şəkildə inkişaf həm də KİV-in maliyyələşdirilməsində yeni subyektlərin, bazar-maliyyə strukturlarının iştirak etməsi ilə müşayiət olunur. Ancaq həmin proses dərhal baş verməmiş, təkcə iqdisadiyyat yox, həm də siyasətlə sıx bağlı olmuşdur. Sonrakı mərhələdə isə KİV-lərin böyük əksəriyyətinin iqtisadi cəhətdən müstəqil olmasının mümkünsüzlüyü aşkarlanmış və bu səbəbdən onlar maliyyə baxımından sahibkarlardan, müəssisələrdən, siyasi partiyalardan asılı vəziyyətə düşmüşlər.

Mediaya sərmayə yatıranların bir çoxu isə müəyyən siyasi məqsədlərə nail olunmasını özləri üçün prioritet seçmişlər. Bütün bunlar nəticə etibarı ilə onu təsdiq etmişdir ki, dövlət siyasətinin mediada hansı formada işıqlandırılması KİV-lərin mövcudiyyət və maliyyələşmə formasından bilavasitə asılıdır.

Ötən əsrin 90-cı illərindən başlayaraq Azərbaycanın ictimai-siyasi həyatında yaşanan dəyişikliklər mediaya da təsirsiz ötüşməmişdir. İctimai-siyasi, sosiomədəni və iqtisadi həyatda baş verən dəyişikliklər media və onun fəaliyyətini tamamilə yeni şərtlər əsasında formalaşdırmışdır. Son 20 ildə Azərbaycanın KİV seqmenti bir sıra nailiyyətlərə imza atmışdır. Yeni müstəqillik tarixində Azərbaycan KİV əsaslı transformasiyaya məruz qalmış və burada yeni informasiya texnologiyalarının, sözügedən kontekstdə isə yaşanan informasiya inqilabının təsiri əsas rol oynamışdır. Bu gün cəmiyyətin media-strukturunda çox güclü və böyük təsirə malik seqment formalaşmışdır. Buraya internet mediası ilə yanaşı qəzet və jurnallar, telekanal və radio-stansiyalar kimi ənənəvi KİV aid edilir. Mediasistem üçün unikal olan internet KİV-i öz təsir dairəsini durmadan genişləndirməkdədir və yaxın perspektivdə onun bu bazarda hegemon mövqeyə yüksələcəyi təhlilçilərdə şübhə doğurmur. Artıq Azərbaycanda bir sıra media quruluşları var ki, onlar "of-line" mövcud deyillər, fəaliyyətlərini yalnız "on-line" rejimdə sürdürürlər. Qərb ölkələrinin inkişaf etmiş media bazarı bunun sadəcə dövrün tələbi olduğunu, bazar iqtisadiyyatı şəraitində bu qəbildən olan media vasitələrinin fəaliyyətini daha optimal şəkildə, yəni az xərclə tənzimləməyin mümkün olduğunu söyləyir.

Sosial məsuliyyət modeli KİV-in ictimaiyyət qarşısında bir sıra öhdəliklərini ozündə cəmləşdirir. Burada peşəkarlıq amili, operativ şəkildə informasiyaların çatdırılması, qərəzsizlik, balans prinsipinin qorunması, obyektiv yanaşma ilk planda yer alır. Prosesi qeyd olunan kontekstdən dəyərləndirdikdə, medianın sərbəst fəaliyyəti və ictimaiyyət qarşısındakı funksiyaları burada özünü əsas prinsiplər kimi göstərir. Belə vəziyyətdə dövlət və medianın münasibətləri müstəqil ictimai qurumların vasitəçiliyi ilə reallaşdırılır. Azərbaycanda analoji təsisat rolunda Mətbuat Şurası çıxış edir. Bəhs edilən modeldə mediaya ictimai rəy, həmçinin peşə etikasının köməyi ilə nəzarət olunur. Bu baxımdan Jurnalistin Etik Davranış Kodeksi media

təmsilçilərindən yüksək peşəkarlıq, obyektivlik və qərəzsiz yanaşma tələb etməklə qalmayıb, eyni zamanda, KİV-lərin fəaliyyət və qarşılıqlı münasibətlərinin tənzimləyicisi rolunda çıxış edir.

Müasir Azərbaycan şəraitində dövlət və KİV arasında qarşılıqlı münasibətlər ideoloji ehkamların aradan qaldırılmasından da keçir. Bu, nəticə etibarilə həmin əlaqələrin hüquqi müstəviyə sürüşməsini şərtləndirir və beləliklə, dəqiq hüquqi əsaslandırma tələb edir. İnformasiya sferasının artan rolu cəmiyyətin formalaşması prosesində mühüm faktorlardan olaraq fəal şəkildə siyasi, iqtisadi, müdafiə və milli təhlükəsizliyin digər tərkib hissələrinə təsir göstərməkdədir.

İstənilən halda KİV öz fəaliyyətində prioritet olaraq cəmiyyətin maraqlarının təmin edilməsi öhdəliyinə diqqət etməlidir. Onun cəmiyyət və dövlətlə qarşılıqlı münasibətləri isə həmişə mürəkkəb xarakterə malik olacaqdır. Çünki KİV-in fəaliyyəti çoxşaxəlidir. Qloballaşma və modernləşmə şəraitində bu çoxşaxəli fəaliyyət yeni çalarlar əldə edərək KİV-in cəmiyyətdə institut kimi mövqeyini daha da möhkəmləndirir.

Nəticə etibarilə aşağıdakı qənaətə gəlmək mümkündür:

1. Müasir politologiya elmi kütləvi informasiya vasitələrinə (KİV) dünyada, regionda, konkret ölkədə cəmiyyətin öz daxilində baş verən hadisələr barədə insanların, sosial qrupların, dövlətin operativ şəkildə məlumatlandırılması vasitəsi, eləcə də spesifik sosial funksiyalar yerinə yetirən informasiya yayım kanallarının məcmusu kimi yanaşır. Siyasətdə sosial informasiya, yəni insanların maraq və fəaliyyəti ilə bağlı bilgi və məlumatlar xüsusi əhəmiyyət daşıyır.

2. İnkişaf etmiş ölkələrdə olduğu kimi, Azərbaycan cəmiyyətində də KİV informasiya dövriyyəsində həlledici rola malikdir. Bu gün müasir siyasi prosesi KİV-siz təsəvvür etmək qeyri-mümkündür. Radio və televiziyadakı siyasi veriliş, qəzet-dəki siyasi reportaj tamaşaçı və oxucu auditoriyasına bilavasitə təsir edir, cəmiyyətdə mühüm ictimai-siyasi hadisə kimi qəbul olunur. Demokratik cəmiyyətdə KİV təkcə təbliğat vasitəsi kimi qalmayraq, obrazlı şəkildə ifadə etsək, həm də hakimiyyətə diametral əks qütb mövqelərində dayanır. Lakin bu prinsipə sadiq qalmaq, ona əməl etmək heç də həmişə müyəssər olmur.

1. KİV-in manipulyasiya arsenalı kifayət qədər böyükdür və o, siyasi şüura, vətəndaşların davranışına aktiv təsir göstərir ki, bu da müasir cəmiyyətdə dördüncü hakimiyyətin nə qədər vacib rol oynadığını bir daha bariz şəkildə nümayiş etdirir. Bu səbəbdən dövlət siyasətinin mahiyyətinin, məqsədlərinin, doğuracağı nəticələrin cəmiyyətə nə dərəcədə düzgün çatdırılması KİV-in bu siyasətə baxış bucağı, mövqeyi, obyektivliyi, hansısa siyasi qrupun təsiri altında olub-olmaması, məsələyə balanslı yanaşıb-yanaşmaması kimi amillərdən asılıdır.

**Açar sözlər:** *dövlət informasiya siyasəti, informasiya məkanı, söz azadlığı, milli maraqlar, informasiya maraqları, informasiya texnologiyaları, sosial məsuliyyət*

### İstifadə olunmuş ədəbiyyat

1. Вебер М. Избранные произведения / Пер. с нем.; сост., общ. ред. и послесл. Ю. Н. Давыдова; предисл. П. П. Гайденко; коммент. А. Ф. Филиппова. Прогресс, 1990, 808 с..

2. Информационная политика. Учебник / Под общей ред. В.Д. Попова - М.: Изд-во РАГС, 2003, 463 с.

3. Манхейм К. Диагноз нашего времени. Пер. с нем и англ.М.: Юрист, 1994, 700 с.

4. Маркс К. Энгельс Ф. Сочинение.Изд. 2 - е. Т.1.М.: Политиздат, 1955, 723 с.

5. Паренти М. Демократия для немногих. Пер. с англ. и предисл. А.Маныкина.М.: Прогресс, 1990, 504 с.

6. Почепцов Г.Г. Информационные войны.М.: Reflbuk, 2000, 576 с..

7. Тугаев А.С., Хренов А.Е. Политология в схемах и комментариях. СПб., 2005 // http://www.fictionbook.ru/author/александртугаев/ politologiya_ v_shemah_i_kommentariyah-/read_online.html?page=1
8. http://kivdf.gov.az/menu/151/Konsepsiya/ 12.07.17
9. http://www.president.az/articles/15874 13.11.17
10. www.e-qanun.az/framework/7512 13.11.2017

**Халид НИЯЗОВ**

## РОЛЬ СМИ В ФОРМИРОВАНИИ ИНФОРМАЦИОННОЙ ПОЛИТИКИ

### Резюме

Осуществление конструктивного диалога между властью и обществом через средства массовой информации всегда должно сохранять свою актуальность. Государственная информационная политика должна защищать интересы государства, гражданского общества и каждой личности. Роль СМИ государства в формировании информационной политики определяется его политическими возможностями.

В демократическом обществе средства массовой информации являются не только средством пропаганды, но и занимают противоположную власти позицию. Посредством обсуждений, поддержки и критики различных политических программ, платформ, идей, предложений различных лиц, общественных организаций, политических партий, фракции и т. д. средства массовой информации исполняют роль политического управления.

**Ключевые слова:** *государственная информационная политика, информационное пространство, свобода слова, национальные интересы, информационные интересы, информационные технологии, социальная ответственность.*

**Khalid NIYAZOV**

## THE ROLE OF THE MEDIA IN THE FORMATION OF INFORMATION POLICY

### Summary

The implementation of a constructive dialogue between the authorities and society through the media will always remain relevant. The state information policy should satisfy, protect the interests of the state, authorities, to extent the state realizes and protects the interests of civil society and every person. The role of the media in forming the information policy is determined by their political capabilities.

In a democratic society the media is not only a means of propaganda, but also takes a position opposite to the power. Through the discussions, support and criticism of various political programs, platforms, ideas, proposals of various persons, public organizations, political parties, factions, etc., the media play the role of political management.

**Keywords:** *state information policy, information space, freedom of speech, national interests, information interests, information technology, social responsibility.*